# Azərbaycanın yeni tarixinin yaradıcısı

**70 yaşlı Sumqayıtın dinamik və tərəqqi dövrü kimi xarakterizə olunan 34 illik tarixi xalqımızın müdrik oğlu, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**

Sumqayıt şəhərinə və sumqayıtlılara diqqət və qayğısını əsirgəməyən dünya şöhrətli siyasətçi bu müddətdə 16 dəfə gənclik şəhərində olmuşdur ki, bu səfərlərin də hər biri şəhərin tarixi salnaməsinin ən parlaq səhifələrini təşkil edir.

Şəhərin tikilib-qurulmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ona görə də Sumqayıtın adı Ulu öndərin arzularının gerçəkləşdiyi şəhər kimi ölkəmizin şanlı tarixinə düşmüşdür. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdən Sumqayıt inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Burada mədəni-sosial obyektlərin, məktəb və yaşayış binalarının tikintisi daha da sürətləndirilmiş qara və əlvan metallurgiya, yüngül sənaye kimya sənayesi yüksək sürətlə inkişaf etdirilmişdir. Bu sətirlərin müəllifi bütün bunların canlı şahididir. Mən əmək fəaliyyətimə kimya sənayesində başlamış "Səthi aktiv Maddələr zavodu" nun direktoru vəzifəsinə qədər yüksəlmişəm.

Mən 1993-cü ildə Sumqayıt su kanalizasiya idarəsinin rəisi olmuşam. Heydər Əliyevin kimya sənayesinə və su sahəsinə olan diqqəti mənim gözüm önündə olub.

### *Ölkə iqtisadiyyatının tərəqqisində*

**özünəməxsus rolu olan kimya sənayesini və su təchizatının daha sürətli və yüksək inkişafına xüsusi əhəmiyyət verən ulu Öndər vaxtı ilə çıxışlarının birində deyirdi ki, Sumqayıtda iri kimya kompleksi yaradarkən, biz bunu Azərbaycanda kimya sənayesinin inkişafı üçün etdik. Qətiyyətlə deyə bilərəm ki, Sumqayıtda edilmiş hər şey Azərbaycan xalqının rifahının yüksəlməsinə, bizim müstəqil respublikamızın iqtisadi potensialının yaradılmasına yönəldilmişdir.**

1993-cü ilin iyun hadisələri ərəfəsində ölkədə ağır vəziyyət yaranmışdı: bir tərəfdən erməni işğalçıları Azərbaycan torpaqlarını işğal edir, hər gün cəbhədə onlarla azərbaycanlı qətlə yetirildi. Digər tərəfdə sadvalçılar, üçüncü tərəfdən Əlikram Hümbətovun silahlı qruplaşmaları ölkəni parçalayırdılar. Bunlardan başqa hakimiyyətdə olanlarla Sürət Hüseynovun silahlı dəstələri arasında döyüş gedirdi. Azərbaycan demək olar ki, beynəlxalq aləmdən tədric olunmuş və iqtidarda olanların cılız, yarıtmaz siyasəti sayəsində dünya dövlətləri Azərbaycandan üz çevirmişdilər.

Belə bir vaxtda insanları fəlakətdən qurtarmaq, ölkəni təhlükədən xilas etmək hadisələri məcraya salmaq çox çətin, həm də müdriklik, cəsarət tələb edən bir vəzifə idi. Ağıllı, gələcəyi görən, hadisələri, düzgün qiymətləndirən insanlar bu vəzifənin çətinliyini çox yaxşı bilirdilər, həm də bu vəzifəni yerinə yetirə biləcək, bu ağırlığı öz çiyinlərində daşıyacaq, xalqı, Vətəni bəlalardan qurtaracaq bir insanı da onlar düzgün seçmişdilər. Xalq yalnız və yalnız bu fəlakətlərin qarşısını ala biləcək bir şəxsiyyətin- Heydər Əliyevin tərəfində idi, ona inanırdı, ona ümid edirdi.

### *Heydər Əliyev*

**yenidən, ikinci dəfə xalqının köməyinə gəldi, xalqımızı böyük fəlakətdən, qurtardı və xalqının əsil xilaskarı oldu. Əgər həmin gün xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik tarixi şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli hər zaman tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi.**



Bu əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə, amma dönmədən məqsədinə doğru addımlayan bir millətin özünə qayıdışı idi. Bu, dilimizin, milli-mənəvi dəyərlərimizin, yaddan çıxmış bir çox həqiqətlərin, eyni zamanda bizə öz real gücümüzü, mənəvi bütövlüyümüzü dərk etməyimizin qayıdışı idi və bununla Azərbaycan özünün müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli bir mərhələsinə qədəm qoydu. H.Əliyev bu gəlişlə Azərbaycanı ucaltdı, eyni zamanda Azərbaycan da onu ucaltdı.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilk növbədə Azərbaycanın varlığını və müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı. Ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, xalqımızı qul vəziyyətinə düşməkdən xilas etdi.

Azərbaycanın qarşısında duran çətin problemlərin böyük bir qismi həll edildi. Digər problemlərin həlli üçün əsaslı zəmin yaradıldı. Bütün bunlara görə Heydər Əliyevin adı Azərbaycanın müasir siyasi tarixində əbədi olaraq qalacaqdır.

Xarici ölkələrlə iqtisadi, siyasi əlaqələr yaradıldı, beynəlxalq münasibətlər yaxmlaşdırıldı, Azərbaycan həqiqətləri dəstəkləndi və bir çox yüksək dairələrdə müdafiə olundu. Dünya Azərbaycan adlı bir dövlətin rəhbərinə - Heydər Əliyevə bir daha inandı və Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olacağım yəqin etdi: Ümummilli liderimiz Azərbaycanın müstəqillik tarixinə nəzər salarkən bu müstəqilliyin qorunub saxlanılmasını, həm də dövlətçiliyimizin məhvinə yönəldilən səyləri təhlil edib qiymətləndirərkən çox düzgün olaraq qeyd edirdi ki, "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub daimi, əbədi olması ondan daha çətindir". Heydər Əliyev öz zəngin təcrübəsinə, dərin düşüncəsinə, böyük dünyagörüşünə, xalqının və dövlətinin keşməkeşli tarixinə əsaslanıb bu fikirləri söyləyir və həmişə də Azərbaycanın müstəqilliyini əbədi etmək, dövlətçiliyini möhkəmləndirmək üçün həyatını qurban verməyə belə hazır olduğunu bildirirdi.

Xalqımızın öz rəhbərinə sonsuz sədaqəti məhəbbəti və Heydər Əliyev müdrikliyi cəsarət müstəqilliyimizin əbədiliyinə, dönməzliyin və gələcəyinə uğurlu yol açdı, ona əbədi zəmanət verdi. Bu yol, bu siyasət Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Azərbaycan iqtisadi inkişafına görə bu gün dünyada öncül yerlərdən birini tutur. Demokratik inkişaf, dövlət quruculuğu, mədəniyyət, təhsil, səhiyyə, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Beynəlxalq aləmdə ölkəmizin rolu və nüfuzu durmadan artır və möhkəmlənir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün ölkə Prezidentini tutduğu mövqe, yeritdiyi siyasət xalqımız tərəfindən yüksək qiymətləndirilir.

### *Bu gün*

doğurdan da, Azərbaycan sabaha ümidlə, inamla addımlayır. Bu ümidi, inamı xalqımızda ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi yaradır. Cənab Prezidentimiz İlham Əliyevin dediyi sözlər deyilən fikirləri təsdiqləyir:

**"Qarşıda duran bütün vəzifələri yerinə yetirmək üçün Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu siyasət bu gün də Azərbaycana lazımdır, sabah da lazım olacaqdır. Mən seçkilərdən əvvəl bu siyasətə sadiq olacağımı və ondan dönməyəcəyimi demişdim, indi siz görürsünüz ki, mən həqiqətən bu siyasətə sadiqəm və bir addım da geri çəkilməyəcəm. Biz yalnız irəliyə və yeni qələbələrə doğru addımlayacağıq".**

**Müasir Azərbaycanı yaradan, yaşadan və onun əbədiliyini təmin edən Heydər Əliyev siyasi kursunun ən layiqli və etibarlı davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin bu kursa sədaqəti hər bir azərbaycanlıda iftixar hissi doğurur. Bu inam xalqımızın işıqlı gələcəyinə təminat yaradır və Heydər Əliyev adı ürəklərdə yaşayır Heydər Əliyev Azərbaycanın yeni tarixinin yaradıcısıdır.**

**Aydın Abbasov**
**"Azərsu" ASC-də departament rəisi,**
**"Tərəqqi Medalı, III dərəcəli əmək ordenli"**